Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# İsa üçün dəhşətli vaxt

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Sarah S.

Alastair Paterson

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsa vəftiz olanda Allah danışdı. O dedi: “Bu, Mənim sevimli Oğlumdur. Ondan razıyam”. Allahın MÜQƏDDƏS RUHU göyərçin şəklində İsanın üzərinə endi.





Bundan sonra İsa Allahın Müqəddəs Ruhu tərəfindən səhraya aparıldı. İsa tək idi.

İsa qırx gün oruc tutdu. Bu o deməkdir ki, O, yemək yemədi. O, çox acdı.



Müqəddəs Kitab deyir ki, orada vəhşi heyvanlar da var idi.



Şeytan İsanı sınağa çəkməyə gəldi.  Çox keçmişdə o, Cənnət Bağında Adəm və Həvvanı Allaha itaətsizlik etməyə sövq etmişdi. İndi İsa sınağa çəkiləcəkdi.




Şeytan hətta
Allahın Oğlunu,
İsanı da sınağa
çəkməyə cəhd
edə bilirdi.


İblis dedi: “Əgər Sən Allahın Oğlusansa, bu daşlara əmr et ki, çörəyə dönsün”. O, İsanın ac olduğunu bilirdi. O bilirdi ki, Allahın Oğlu daşı çörəyə döndərə bilər.
İsa iblisə itaət edəcəkmi?

Xeyr!  İsa iblisə itaət etmədi.  Əksinə, O, Allahın Sözü ilə cavab verdi:



“İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər bir kəlmə ilə yaşayar”.



Sonra Şeytan İsanı Yerusəlim şəhərinə, insanların Allaha səcdə etdikləri müqəddəs məbədin qülləsinə gətirdi.  İblis sonra nə edəcəkdi?




İblis dedi: “Əgər Sən Allahın Oğlusansa, Özünü aşağı at”.

“Xeyr!” İsa cavab verdi. “Yazılmışdır: ‘Allahın Rəbbi sınama’ ”.





İblis yenə cəhd etdi.
O, İsanı çox yüksək
bir dağa çıxartdı.

İsaya dünyanın bütün padşahlıqlarını göstərərək, iblis dedi: “Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm”.



İsa əmr etdi: “Rədd ol, Şeytan!” Yazılmışdır: “Allahın olan Rəbbə səcdə et və yalnız Ona ibadət et”.



İblis bir müddətlik
İsanı tərk etdi.
Sonra gözəl
bir şey
baş verdi.



Allah, iblisə itaət etməyən Oğlu İsaya təsəlli vermək və qayğısına qalmaq üçün mələklər göndərdi.



# İsa üçün dəhşətli vaxt

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 4, Luka 4

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış! Yəhya 3:16**